Ədəbiyyat qəzeti

2024.-25 may,№19.-S.32



# *Hüseyn HATƏMİ-70*

Tanınmış şair Hüseyn Hatəmini 70 illik yubileyi münasibətilə təbrik edirik.

Hüseyn Babaxan oğlu Hatəmi 1954-cü ildə Gəncədə doğulub. 23 saylı şəhər orta məktəbini bitirdikdən sonra bir il fəhlə işləyib. 1972-ci ildə Gəncə Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsinə daxil olub.1976-cı ildə ali təhsilini tamamlayaraq 34 saylı məktəbdə pedaqoji fəaliyyətə başlayıb.Daha sonra Azərbaycan Aqrar Universitetində dərs deyib. Gəncə Şəhər İcra Hakimiyyəti mətbuat xidmətinin rəhbəri, "Kəpəz" müstəqil televiziyasının sədri vəzifələrində səmərəli fəaliyyət göstərib.

Bədii yaradıcılığa ötən əsrin 60-cı illərinin sonunda başlayıb.İlk şeiri 1969-cu ildə "Kirovabad kommunisti" qəzetində dərc edilib.Həmin vaxtdan müntəzəm olaraq mətbuatda çıxış edib. 1982-ci ildə Şuşada keçirilən ilk Vaqif poeziya günlərində çıxış edən şairlərdən biridir. "Qatar yola düşür", "Təbrizə açılan yollar", "Nənəm xalça toxuyur", "Sevgi dolu ürək", "Gəncəçayın nəğmələri", "Ürəyində saxla məni" və s. kitabların müəllifidir.

Hüseyn Hatəmini bir daha yubileyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**